# AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUMLARININ FƏALİYYƏTLƏRİNƏ MƏHDUDİYYƏTLƏRLƏ BAĞLI RƏY YAZISI



2022

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU

IDI

INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUMLARININ FƏALİYYƏTİNƏ MƏHDUDİYYƏTLƏRLƏ BAĞLI RƏY YAZISI

**Müəlliflər: Kənan Bağırov və Fərid Arazzadə**

**Baku – 2022**

# Mündəricat

1. GİRİŞ ....................................................4
2. AZƏRBAYCAN VƏTƏNDAŞ CƏMİYYƏTİNİN ÜZLƏŞDİYİ MƏHDUDİYYƏTLƏR ..5
3. TÖVSİYƏLƏR ....................................................7
4. Ədəbiyyat siyahısı ....................................................8

# 1. GİRİŞ

SSRİ dağıldıqdan sonra Cənubi Qafqazda Vətəndaş Cəmiyyəti İnstitutlarının sayı sürətlə artmağa başladı ki, bu da postsovet məkanı üçün fövqəladə hal idi (Ishkanian, 2008; Nodia, 2005; Aliyev, 2015). Cənubi Qafqazda yaranan bu tip təşkilatlanmalar hökumətin yaratdığı qeyri-hökumət təşkilatları [government-organized non-governmental organizations] adlandırılan qurumları da əhatə edirdi ki, onların çoxunun yalnız adları var idi (Aliyev, 2014).

Caucasus Barometer müəyyən edib ki, azərbaycanlıların qeyri-hökumət təşkilatlarına güvəni 2009-2013-cü illərdə 34 faizdən 21 faizə qədər azalıb (CRRC, 2013). 2013-cü ildən sonra Azərbaycanda Vətəndaş Cəmiyyəti İnstitutlarına etimadla bağlı araşdırma aparılmadığından bu institutların nə qədər funksional olduğu, vətəndaş cəmiyyətinin hansı səviyyədə inkişaf etdiyi haqda məlumat vermək çətindir. Tədqiqat işi 2013-ci ildən sonrakı qanunvericiliyin vətəndaş cəmiyyətinin fəaliyyətinə yaratdığı maneələrin analizi yoluyla ölkədə bu qurumun inkişafı üçün şəraitin hansı səviyyədə olduğunu müəyyən edir. Bu sahədə maneələri aradan qaldırmaq üçün verilən tövsiyələr vətəndaş cəmiyyəti institutlarına növbəti fəaliyyətində yol göstərəcək.

Azərbaycanda dövlətdən maliyyə dəstəyi almayan müstəqil vətəndaş cəmiyyəti institutlarının üzləşdiyi problemlər haqda son illərdə məlumat yetərli olmadığından bu problemlərin həllinə obyektiv və hərtərəfli yanaşma da sual altındadır.

Bu tədqiqat işinin məqsədi Azərbaycanda qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti qurumlarının fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan struktural və nisbi çətinliklərin təsvirini təqdim etməkdir.

CIVICUS vətəndaş cəmiyyətini “dövlətdən, ailədən və bazardan kəskin şəkildə fərqlənən sahə” (Heinrich, 2004) olaraq müəyyən edir. Vətəndaş cəmiyyəti iqtisadi yox, siyasi bir termin olduğundan gəlir əldə etməyə və ya iqtisadi üstünlüyə maraq göstərmədən, idarəçilik və inkişaf yönümlü ictimai fəaliyyətə yönəlir (Heinrich, 2004).

Encyclopedia Britannica-ya görə, vətəndaş cəmiyyətinin mövcudluğu sağlam demokratiyanın əsas göstəricilərindən biridir, vətəndaş cəmiyyətinin fəaliyyətinin aşağı səviyyədə olması ölkənin siyasi və sosial vəziyyətinə mənfi təsir edir (Kenny, 2016).

Birləşmiş Millətlər Təşkilatına görə isə, Vətəndaş Cəmiyyəti İnstitutu (VCİ) yerli, regional və ya qlobal səviyyədə təşkil olunmaqla vətəndaşların problemlərini hökumətlərin diqqətinə çatdırmağı, tənzimləmələrə nəzarət etməyi cəmiyyətin siyasətə cəlb olunmasını qarşısına məqsəd qoyur.[1]

[1] https://www.un.org/en/civil-society/page/about-us

# 2. AZƏRBAYCAN VƏTƏNDAŞ CƏMİYYƏTİNİN ÜZLƏŞDİYİ MƏHDUDİYYƏTLƏR

QHT haqqında qanuna 17 dekabr 2013-cü il tarixdə yeni əlavələr onların fəaliyyətini daha da məhdudlaşdırdı (Məmmədli, 2015). Ələsgər Məmmədli qanunla bağlı yazır: *"Əvvəllər bu qurumların qeydiyyatı üçün təsis sənədlərində Saziş şərti yox idi. Həmin qurumlara birbaşa yenidən qeydiyyatdan keçməlisiniz demək də hüquqi baxımdan yanlış olur".*

Qanuna edilən dəyişikliyə görə, QHT-yə bir ildə iki dəfədən çox yazılı xəbərdarlıq, hətta pozuntuların aradan qaldırılması haqda göstəriş verilərsə, bu zaman həmin QHT məhkəmə qərarı ilə rəsmi şəkildə ləğv edilə bilər. Belə nəticəyə gələ bilərik ki, bu, QHT-lərin fəaliyyətini olduqca məhdudlaşdırır və onun varlığını açıq-aşkar təhlükə qarşında qoyur (Məmmədli, 2015).

Qanunla bağlı başqa bir detal isə budur ki, QHT illik maliyyə hesabatını vaxtında hökumətə təqdim etmədikdə icra hakimiyyəti həmin QHT-yə 30 gün müddət verir. Bu müddət ərzində QHT maliyyə hesabatını təqdim etməklə bağlı məsuliyyət daşıyır. Bu isə yenə QHT-yə qarşı xəbərdarlıq edilməsi ilə nəticələnə və yenə də onun varlığını təhlükəyə ata bilir (Məmmədli, 2015).

Beləliklə, 2013-cü ildə QHT-lərlə bağlı qanuna əlavə edilən dəyişikliklər QHT-lərin maliyyələşməsi, təşkilatlanması, fəaliyyət göstərməsi istiqamətində ciddi məhdudiyyətlər yaradır.

CIVICUS (2007) vurğulayır ki, insanların çoxunun ictimai maraqların başlıca müdafiəçisi kimi dövləti görməsinin əsas səbəblərindən biri Azərbaycanın 70 il SSRİ tabeliyində olması, totalitar-avtoritar rejimlərin ölkəni idarə etməsiydi. SSRİ hakimiyyəti vaxtı bütün vətəndaş cəmiyyəti fəaliyyətini - qadın təşkilatları, xeyriyyə fondları, ticarət assosiasiyaları, veteran və məhdudiyyətli şəxslər təşkilatları, ya da idman və mədəniyyət təşkilatları - hökumət idarə edirdi (CIVICUS, 2007).

CIVICUS vurğulayır ki, 1980-ci illərdə, SSRİ-nin zəifləməsi, Qərb dəyərlərinin ölkədə tanınmağa başlanması və Dağlıq Qarabağ münaqişəsi Azərbaycanda vətəndaş cəmiyyətinin yaranmasında başlıca rol oynayıb.

2000-ci il "Qeyri-hökumət təşkilatları haqqında" qanunun qəbulundan sonra Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatlarının rəsmi şəkildə fəaliyyətinə şərait yarandı.

CIVICUS (2007) müəyyən edib ki, kütlələrin az bir hissəsinin marağını əhatə etdiyinə, maliyyə problemləri olduğuna və cəmiyyətin güvənini qazanmadığına görə Vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti çox məhduddur.

Vətəndaş cəmiyyətinin mövcudluğu və inkşafı demokratik inkşafdan, siyasi və sosial sabitlikdən, qanun və tənzimləmələrdən, rəqabətli bazar iqtisadiyyatından və ideoloji rəqabətin mövcudluğundan asılıdır (CIVICUS, 2007).

Azərbaycan hakimiyyəti neft və qazdan gələn asan gəlir sayəsində güclü bir hökumət qurub ki, bu hökumət ölkədəki başqa potensial güc mərkəzlərini - medianı, siyasi partiyaları, vətəndaş cəmiyyətini sıradan çıxarıb (Aslanlı, 2018). Neft və qazın emalı qarışıq funksiyaları olmayan, çoxlu insan əməyi tələb etməyən bir sahə olduğundan cəmiyyətdən kənar qalır və yalnız hökumət maraqlarına xidmət edir.

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT, 2017) araşdırmasında qeyd edilir ki, 2013-2015-ci illərdə Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətinə hüquqi əngəllər yaradan müddəaların milli qanunvericiliyə gətirilməsi ilə Qeyri-Hökumət Təşkilatlarının işi üç aspektdə - 1)QHT-lərin qeydiyyatı; 2)QHT-lərin maliyyələşməsi; 3)QHT-lərə qarşı sanksiyalar - ağırlaşdırıldı. Bu cür hüquqi əngəllər nəticəsində nüfuzlu xarici QHT-lər və donor institutlar Azərbaycandan getməyə məcbur oldu. Əksər yerli QHT-lərin fəaliyyəti isə iflic vəziyyətinə düşdü (SMDT, 2017).

# 3. TÖVSİYƏLƏR

Azərbaycanın vətəndaş cəmiyyətinin üzləşdiyi qadağalara nəzər saldıqda müxtəlif cür təsnifləndirilə biləcək məhdudiyyətlərin qarşılıqlı əlaqəsini görmək mümkündür. Belə ki, əvvəlki bölmədə göstərilən problemlərin bir-biri ilə əlaqədar olması qanunla tətbiq edilən siyasi motivli tənzimləyici məhdudiyyətlərin vətəndaş cəmiyyətinin fəaliyyət arealını daraltması ilə izah oluna bilər. Yaxud qeyd etmək olar ki, bu xüsusda dövlətin müstəsna səlahiyyətlərə sahib olması vətəndaş cəmiyyətinin idarə edilməsi üçün zəmin yaradır və onun fəaliyyət arealını nəzarət altına alır. Təsvir olunmuş məhdudiyyətlərin aradan qaldırılması və Azərbaycan vətəndaş cəmiyyətinin potensialının realizəsi üçün aşağıdakı istiqamətlərdə uyğun addımların atılmasını zəruri sayırıq:

**Leqal məhdudlaşmaların aradan qaldırılması:** Azərbaycan vətəndaş cəmiyyətinin həm yerli, həm milli səviyyədə, həmçinin beynəlxalq səviyyədə əlaqə və əməkdaşlığının səmərəli təşkili üçün 2013-cü ildən bəri qəbul edilmiş və tətbiq edilməkdə olan məhdudlaşdırıcı leqal aktların vətəndaş cəmiyyəti təsisatları və hüquq mütəxəssisləri ilə məsləhətləşmələr əsasında dəyişdirilməsi və ya ləğv edilməsi.

**Əks-mərkəzləşmə və yaxşı idarəetmənin təşviqi:** Vətəndaş cəmiyyəti təsisatlarının gücləndirilməsi zamanı əks-mərkəzləşmə prinsipinin rəhbər tutulması yolu ilə yerli özünü idarəetmənin təşviq olunması. Yaxşı idarəetmə prinsipləri əsasında dövlət müəssisələri ilə vətəndaş birlikləri arasındakı əlaqəni şəffaflıq və hesabatlılığın qısa və uzun vədəli, ölçülə bilən strategiyalarla formalaşdırılması, inkişaf etdirilməsi.

# 4. ƏDƏBİYYAT SİYAHISI

Aliyev, H. (2014) Civil society in the South Caucasus: kinship networks as obstacles to civil participation. *Southeast European and Black Sea Studies*, 14:2, 263-282, DOI: 10.1080/14683857.2014.904545

Aslanli, K. (2018). Azerbaijan: Civil Society and the Petroleum Sector. DOI: 10.1007/978-3-319-60627-9_4.

Ishkanian, A. (2008). Democracy building and civil society in post-Soviet Armenia. New York: Routledge.

Məmmədli, Ə. (2015). Birləşmək Azadlığı, QHT qanunvericiliyinin hüquqi analizi. Bakı, Qanun nəşriyyatı**.**

Nodia, G. (2005). Civil society development in Georgia: Achievements and challenges. In Citizens advocate program, ed. Nodia, Ghia, 1–60. Tbilisi: Caucasus Institute for Peace, Democracy and Development.

The Caucasus Research Resource Centers (CRRC). (2013). Caucasus Barometer [datasets]. https://caucasusbarometer.org/en/cb2013az/TRUNGOS/ (Əldə edildi: 18 May 2022).

"Civil Society | Social Science". *Encyclopedia Britannica*. www.britannica.com, https://www.britannica.com/topic/civil-society (Əldə edildi: 18 May 2022).

United Nations. "About Us | United Nations." United Nations, www.un.org, https://www.un.org/en/civil-society/page/about-us (Əldə edildi: 18 May 2022).

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT), ARAŞDIRMA SƏNƏDİ, Bakı, 2017.

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI